Şübhəsiz ki, Allahın sərvətini haqsız yerə istifadə edənlərə Qiyamət günü cəhənnəm əzabı var

Xovlə Əl-Ənsaridən (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edildir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Şübhəsiz ki, Allahın sərvətini haqsız yerə istifadə edənlərə Qiyamət günü cəhənnəm əzabı var".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanların varını, sərvətini batil yolla xərcləyən, haqsız yerə əldə edənlər haqqında xəbər verir. Burada maliyyə vəsaitinin qanunsuz toplanması, onun saxta yolla əldə edilməsi, düzgün xərclənməməsi barədə ümumi mənanı açıqlayır. Bura həmçinin yetimlərə, vəqfə ayrılan maliyyə vəsaitlərini batil yolla mənimsəmək, (onlara həvalə edilən) əmanətə xəyanət etmək, haqqı olmadığı halda ümumi maliyyə və əmlak sərvətlərindən şəriətə zidd olaraq götürmək də daxildir. Sonra Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Qiyamət günü onların cəzası cəhənnəmdir.

http://www.sunnah.global/hadeeth/az/show/5331